

Yeganə xanımı 12 ildir ki, tanıyıram. Nazirliyin baş inspektoru vəzifəsində çalışarkən otaq yoldaşım Təranə Mahmudovanın yanına gələrdi. Maraqlı söhbətləri bitib-tükənmək bilməzdi. Onların ünsiyyətində diqqətçəkən məqamlar çox idi.

# Uğura aparan yol

**Hər ikisi Ağdamdan olduğundan yalnız iş-gücələrindən deyil, həm də ailə qayğılarından, ətrafda baş verən hadisələrə münasibətlərindən söz açardılar. Onda mən Yeganəni yaxşı tanımır, harada çalışdığını, hansı vəzifəni daşıdığını bilmirdim.**

Amma sözündən-söhbətindən savadlı, qayğıkeş, yüksək təşkilatçılıq bacarığına malik olduğunu yəqin etmişdim. Bu yaxınlarda, aradan neçə illər keçəndən sonra fikrimdə yanılmadığıma bir daha əmin oldum.

Onunla Bakının Dərnəgül qəsəbəsində - rəhbəri olduğu Ağdam rayon Cabbar Qaryağdıoğlu adına 1 saylı Uşaq Musiqi Məktəbinin məskunlaşdığı binada görüşdük. Öyrəndiklərimizi Yeganə xanımın dili ilə dəyərli oxucularımıza da çatdırmaq istərdik.

Beləliklə, sözü C.Qaryağdıoğlu adına 1 saylı Uşaq Musiqi Məktəbinin direktoru Vəliyeva Yeganə Behbud qızına veririk:

- Ailəmizdə mədəniyyətə, incəsənətə, musiqiyə həmişə böyük maraq olub. Ona görə də valideynlərim bu sahəni seçməyimi istəyirdilər. Mənim arzum isə həkim olmaq idi. Amma sonda ailəmizin təkidi ilə mən hazırda rəhbərlik etdiyim məktəbdə oxumağa başladım. 1968-ci ildə oranı bitirəndən sonra təhsilimi musiqi texnikumunda davam etdirdim. Sonra ali təhsil də aldım.

Beləcə, ömrümün böyük bir hissəsini musiqimizin inkşafı və təbliğinə, uşaqlarımızın təlim-tərbiyəsinə həsr etdim. Etiraf edim ki, buna peşiman deyiləm. Əksinə sevinirəm, nə yaxşı ki, valideynlərimi dinlədim. İndi özümü bu sənətsiz təsəvvür edə bilmirəm. Musiqimizin inkişafı və təbliğində, uşaqların təlim-tərbiyəsində müəyyən rolum olduğuna görə qürur hissi keçirirəm.

Müəllim kimi fəaliyyətə 1972-ci ildən başlamışam. 5 il sonra məktəbin dərs hissə müdiri, 1989-cu ildə isə direktor təyin olunmuşam. Artıq direktor kimi 20 ildir ki, çalışıram. Dəqiq bilmirəm, amma düşünürəm ki, bu il həm də məktəbimizin yubileyidir. Bunun la bağlı çox axtarış aparmışam, məktəbin bütün keçmiş direktorları arasında sorğu keçirmişəm. Təəssüflər olsun ki, dəqiq məlumat verən olmayıb. Buna müharibənin də təsiri olmamış deyil...

*(Davamı 50-ci səhifədə)*

# Uğura aparan yol

Əvvəli 39-cu səhifədə



Təsəvvür edin ki, nankor qonşularımız hər şeyi odlara qaladı, qarət və talan etdi. Biz bu məktəbdə məskunlaşarkən Bakıda bizə cəmi bir otaq ayırdılar. Musiqi aləti və dərs vəsaitindən söhbət gedə bilməzdi. Bununla belə biz ruhdan düşmədik. Çalışdıq, bütün qüvvə və bacarığımızı səfərbərliyə aldıq.

Nəticəsi pis olmadı. Bu gün razılıq hissi ilə deyə bilərəm ki, hazırda 18 sinif otağımız, böyük bir zalımız və zəngin kitabxanamız var. Otaqların hamısı pianino ilə təmin olunub. Başqa ixtisaslar üzrə də müvafiq musiqi aləti, avadanlıq və vəsaiti almışıq.

Müəllimlərimizin hamısı, şagirdlərimizin isə 98 faizi ağdamlıdır. Burada 8 ixtisas üzrə dərs keçirilir.

Məktəbimizin şərəfli keçmişi olub. Yetirmələrimizin sorağı yalnız respublikanın deyil, həm də müxtəlif ölkələrin mədəniyyət və təhsil ocaqlarından gəlir. Rəmiş, konservatoriyanın prorektoru Oktay Quliyev və başqaları da bu məktəbin məzunlarıdır. Bu ənənə indi də davam edir. Uşaqlarımız təhsillərini artırmaq üçün ali və orta ixtisas məktəblərinə üz tuturlar.



**Onlarda xüsusi maraq oyatmaq, musiqi zövqünü təkmilləşdirmək üçün müxtəlif tədbirlər keçiririk. İstedadlı uşaqlarımız müsabiqə və festivallara fəal qoşulur. Bu sahədə də xeyli uğurumuz var. Uşaqlarımız Fəxri Fərmana və pul mükafatlarına layiq görülüblər.**

**Bütün bunlar bizi daha yaxşı çalışmağa, uşaqların təlim-tərbiyəsində yeni-yeni uğurlara nail olmağa ruhlandırır...**

● Y.ARAPLI